**ƏSMƏR FƏRZƏLİYEVA**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
**e-mail: aa.farzaliyeva@gmail.com**

# X-XI SİNİFLƏRDƏ İCMAL MÖVZULARIN TƏDRİSİNƏ DAİR

**Açar sözlər:** kurikulum, ədəbiyyat dərsləri, təlim, təhsil, interaktiv təlim metodları, icmal mövzuları
**Ключевые слова:** курикулум, уроки литературы, образование, преподавание, интерактивные методы обучения, обзорные темы
**Key words:** curriculum, literature lessons, education, teaching, interactive methods of education, review topics

Ümumtəhsil məktəblərində ədəbiyyat fənninin məzmununa daxil olan materiallardan bir hissəsini də icmal mövzuları təşkil edir. İcmal dedikdə, xülasə, qısaltma, konspekt, yekunlaşdırma, hər hansı bir yazının yığcam şəkildə ifadə olunması kimi mənalar başa düşülür. Ədəbiyyat tədrisində də icmal mövzuları müəyyən bir dövrün səciyyəvi xüsusiyyətlərini çatdırmaq üçün istifadə olunur. Bu tip icmallara bəzi metodik ədəbiyyatda "tarixi icmallar" deyilir. İcmal mövzuları ayrılan saat miqdarı az olmasına baxmayaraq, bu mövzular geniş təlim-tərbiyə imkanlarına malikdir. İcmal mövzuları həm də həmin dövr üçün ayrıca tədris olunacaq ədəbi şəxsiyyətlərin həyatı və yaradıcılıq yolu ilə sıx bağlı olub, həmin mövzuların öyrənilməsi baxımdan zəmin rolunu oynayır. Bu mövzuların tədrisi vasitəsilə şagirdlər növbəti dərslərdə öyrəniləcək materiala əvvəlcədən qismən hazırlaşmış olur. İcmal mövzularının tədrisi zamanı şagirdlərə bir sıra tarixi məlumatlar, müxtəlif dövrlərin ədəbi mühiti, mədəniyyəti, həmin dövrlərdəki ədəbi meyillər, üslub, forma, janr rəngarəngiliyi haqqında geniş məlumat verilir.

Bildiyimiz kimi, son zamanlarda təhsil sahəsindəki aparılan islahatların nəticəsi kimi "Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları)"nın qəbulu və həmin sənədin orta məktəb dərsliklərinə tətbiqi ilə əlaqədar olaraq artıq ədəbiyyat dərsliklərində yer alan icmal mövzuları layihə şəklində təqdim olunmuşdur. Layihə üzrə işin ilkin məlumatlandırılması sinifdə yerinə yetirilir; yekunlaşdırılması isə, əsasən, dərslikdəki məlumatlar vasitəsilə həyata keçirilir. İcmal mövzuların bu cür layihə şəklində təqdim olunmasın nə qədər uğurlu olduğu haqqında söz söyləmək hələlik bir az çətindir.

Bu materialların digər bir əhəmiyyəti də ədəbiyyatın tarixi dövrləri arasında əlaqə yaratmaq, həmin dövrlərin bir-biri ilə qırılmaz bir şəkildə bağlı olduğunu şagirdlərə çatdırmaqdır. X sinif Ədəbiyyat kursunda yer alan

icmal mövzuları əvvəlki tarixi dövrləşməyə uyğun olaraq, ədəbiyyatımızın dörd tarixi mərhələsi təqdim olunur:

- Qədim dövr Azərbaycan ədəbiyyatı (Ən qədim zamanlardan XIII əsrə qədərki dövr);
- Orta dövr Azərbaycan ədəbiyyatı (XIII-XVI əsrlər);
- Yeni dövr Azərbaycan ədəbiyyatı I mərhələ (XVII-XVIII əsrlər);
- Yeni dövr Azərbaycan ədəbiyyatı II mərhələ (XIX əsr).

İcmal mövzuların bir başqa əhəmiyyətli tərəfi də qısa vaxt ərzində şagirdlərə bir sıra yeni məlumatların verilə bilməsidir. Məsələn, X sinifdə tədris olunan "Yeni dövr Azərbaycan ədəbiyyatı II mərhələ" icmal mövzusunun öyrənilməsinə nəzər salaq. Haqqında danışacağımız bu dövr (XIX əsr) Azərbaycan tarixində baş verən bir sıra mühüm siyasi-mədəni hadisələrlə yadda qalır. Azərbaycan iki qonşu dövlətin - Rusiya və İran arasında gedən müharibələrin nəticəsi kimi "Gülüstan"(1913) və "Türkmənçay"(1828) müqavilələri ilə iki hissəyə parçalanır. Şimalda Rusiya, cənubda İran hökmranlığı başlayır. Bundn əlavə XIX əsrdə:

- Maarifçilik ideyaları geniş vüsət aldı;
- Ölkədə milli teatrın əsası qoyuldu;
- Ədəbiyyatda yeni növ və janrlar meydana gəldi;
- Ölkədə yeni tipli məktəblər açıldı, dərsliklər yazılmağa başladı.

Bütün bu sadaladığımız xüsusiyyətlər bunu deməyə əsas verir ki, XIX əsr ədəbiyyat tariximiz şagirdlərə əsaslı şəkildə öyrədilməli, mümkün qədər geniş məlumat verilməlidir. Çünki bu icmal mövzusu vasitəsilə dövrün ədəbiyyatının inkişaf xüsusiyyətləri, eləcə də növbəti dərslərdə müstəqil mövzu kimi öyrəniləcək Qasım bəy Zakir, Mirzə Fətəli Axunzadə, Nəcəf bəy Vəzirov, Seyid Əzim Şirvani kimi ədəbi şəxsiyyətlərimizin həyat və yaradıcılıq yolunun öyrənilməsi baxımdan zəmin rolu oynayır. Bu kimi dərslərdə müəllimin inteqrativlikdən(təhsilin məzmun komponentlərinin bir-biri ilə əlaqələndirilməsi) məqsədyönlü şəkildə istifadə etməyi əsas götürülür. Belə ki, şagirdlərə XIX əsr ədəbiyyatımız tədris olunarkən müəllim interaktiv mühazirəsini qurmaq üçün həmin dövrün tarixi-coğrafi şəraitini çatdırmaq baxımdan fənlərarası əlaqə imkanlarından istifadə edərək, dərsi coğrafiya, tarix fənləri ilə əlaqəli şəkildə qura bilər. Bundan əlavə, müəllim dərsi daha səmərəli qurmaq baxımdan dərsdə dialoq, ifadəli oxu, şagirdlərin müstəqil çıxışlarından da istifadə edə bilər.

XX əsrdən müasir mərhələyə qədər olan ədəbiyyat tarixi materialları ümumtəhsil məktəblərinin 11-ci sinfində tədris olunur. 2018-ci ildə kurikuluma əsasən çap olunmuş 11-ci sinif Ədəbiyyat dərsliyində ədəbiyyat tarixinin dövrləşməsi akademik İsa Həbibbəylinin müəllifi olduğu yeni dövrləşmə konsepsiyasına uyğun olaraq dörd mərhələyə bölünür:

- Azərbaycan ədəbiyyatında tənqidi realizm və romantizm dövrü (XIX əsrin 90-cı illərindən 1920-ci ilədək);
- Sovet dövrü Azərbaycan ədəbiyyatı (1920-1991-ci illər);
- Azərbaycan ədəbiyyatında milli özünüdərkə qayıdış və istiqlalçılıq mərhələsi (XX əsrin 60-90-cı illəri);
- Müstəqillik dövrü çoxmetodlu Azərbaycan ədəbiyyatı.

Ənənəvi üsuldan fərqli olaraq, interaktiv təlim prosesində müəllim dərsi mümkün qədər canlı qurmalı, şagirdlər fərdi, qrup və ya cütlüklər şəklində mövzu üzərində araşdırma aparmalı, bununla da şagirdlər arasında ünsiyyət, əməkdaşlıq, öz fikrini sərbəst şəkildə ifadə edə bilmək, tədqiqatçılıq bacarıqları formalaşdırmalıdır.

Yeni təlim materiallarının mənimsədilməsi üzrə iş aşağıdakı mərhələlərlə aparılır:

Motivasiya mərhələsində mövzu, problem üzrə qazanılmış biliklər öyrədiləcək mövzu ilə əlaqələndirilir, yeni biliklərin daha yaxşı mənimsənilməsi üçün zəmin yaradılır. Yaxın fənlərlə əlaqə quraraq bu mərhələni daha səmərəli şəkildə qurmaq olar. Mötivasiya mərhələsinin yekununda şagirdlərin də iştirakı ilə tədqiqat sualı müəyyən olunur.

Tədqiqatın aparılması zamanı şagirdlər mətnin oxusu, sual və tapşırıqlar üzrə araşdırma fərdi, cütlük və qrup şəklində yerinə yetirilə bilər. Sual və tapşırıqlar mətn üzrə öyrənilənləri tamamlamaq, dərinləşdirməklə yanaşı, əsərin məzmununun mənimsənilməsi və təhlili, şifahi və yazılı nitq üzrə bacarıqları inkişaf etdirmək məqsədi daşıyır.

Təqdimatların mübadiləsi və müzakirəsi diskussiya, müxtəlif mövqelərin aşkara çıxarılması, söylənilən fikirlərin əsaslandırılması ilə həyata keçirilir.

Yaradıcı tətbiqetmədə şagirdləri mövzu ilə əlaqədar mənimsənilənləri möhkəmləndirməyə, yeni material üzərində işləməyə yönəldən sual və tapşırıqlardan istifadə olunur.

Nəticə və ümumiləşdirmə. Aparılan araşdırmanın yekunlaşdırılması, yeni biliklərin ümumiləşdirilməsi, nəticə çıxarılması məqsədilə aparılan müzakirə şagirdləri ortaq mövqeyə gəlməyə, ümumi qənaətlərə istiqamətləndirir.

Qiymətləndirmə, refleksiya mərhələsində müəllimin dərs ərzində apardığı qeydlər əsasında fərdi və qrup üzrə qiymətləndirmə aparılır. Şagirdlərin təqdimatları, dərs zamanı müzakirədə iştirak səviyyəsi barədə müəllim öz rəyini bildirir, nailiyyətlər və çatışmazlıqlar nəzərə çatdırılır, tövsiyələr verilir.

Evdə iş(ev tapşırığı) şagirdlərin evdə, kitabxanada mənbələrlə iş, müstəqil tədqiqatçılıq fəaliyyəti ilə davam etdirilir. Bu məqsədlə verilən sual

və tapşırıqlar yaradıcı, tətbiqedici xarakter daşıyır, onları yerinə yetirmək üçün hansı mənbələrdən istifadə edilməsinin məqsədəuyğun sayılır.

### Ədəbiyyat:

1. Əliyev S., Həsənov B., Mustafayeva A. Ümumtəhsil məktəblərinin 10-cu sinfi üçün Ədəbiyyat fənni üzrə dərslik. Bakı, “Bakı” nəşriyyatı, 2017
2. Əliyev S., Həsənov B., Mustafayeva A. Ümumtəhsil məktəblərinin 10-cu sinfi üçün Ədəbiyyat fənni üzrə dərsliyin metodik vəsaiti. Bakı, “Bakı” nəşriyyatı, 2017
3. Həbibbəyli İ., Həsənov B., Mustafayeva A., Əliyev S. Ümumtəhsil məktəblərinin 11-ci sinfi üçün Ədəbiyyat fənni üzrə dərslik. Bakı, “Bakı” nəşriyyatı, 2018
4. Həsənov B, Mustafayeva A., Əliyev S. Ümumtəhsil məktəblərinin 11-ci sinfi üçün Ədəbiyyat fənni üzrə dərsliyin metodik vəsaiti. Bakı, “Bakı” nəşriyyatı, 2018
5. Həsənli B. Ədəbiyyatın tədrisi metodikası. Bakı, “Müəllim”, 2016
6. Hüseynoğlu S. Ədəbiyyat dərslərində yeni texnologiyalar: fəal/interaktiv təlim(müəllim üçün vəsait). Bakı, 2009
7. Yusifov F. Ədəbiyyatın tədrisi metodikası. Bakı, ADPU-nun nəşri, 2017

**Asmar Farzaliyeva**

### On the study of review topics in 10-11th classes
### Summary

The majority of the themes on literature refer to the review topics. The word “review” means summarizing, shortening of any text. They connect themselves the definite period’s characteristics. The review topics play a big role in development of literature. These themes develop integration between subjects and inside the subject. In teaching these themes the teacher can join such subjects as history, geography, Azerbaijani. The studying of these themes play a good role understanding of biography and works of writers. The XIX century is known as new genres works, the foundation of national press(mass media) and theatre. This period in the history of our literature is known as “A new period of Azerbaijan literature, the second stage”. This period is studied at schools in the programmes of the 10th form. It is given the information about the events in the history of Azerbaijan the separation of Azerbaijan by Russia and Iran. Political events influence on literature. The new types of schools, press education in the country make a progress.

With the help of review topics the students have the imagination about the development of cultural-literature destination in Azerbaijan.

**Асмар Фарзалиева**

**По поводу обучении итоговых тем в 10-11 классах**
**Резюме**

Част материала, которой входит в предмет литературы является иследовательской темой. Словом «обзор» обозначается сокращение, конспект, заключение, изложение какого-то текста в сжатом виде. Эти темы имеют широкий обозревательно-воспитательные возможности. Они соединяют в себе общие черты какого-либо исторического периода. Эти темы играют большую роль в развитии нашей литературы. Они приносят пользу в интеграции между и внутри предмета. При обучении этих тем учитель может создавать связь между такими предметами как история, география и азербайджанский язык. Изучение данных тем играет важную роль в усвоении жизны и творчества литературных деятелей на последующих уроках. XIX век вошёл в историю литературы как век новых литературных жанров, век возрождения просвещения, век зарождения национальной печати и основы национального театра. Этот период литературы вошёл в общий литературный процеес, как «Второй этап нового периода Азербайджанской литературы» В этот период в X классах общеобразовательных школах литература преподаётся на курсах по литературе. При изучении тем в школах даются исторические сведелия о раздем Азербайджана между Ираном и Россией в 19-ом веке. Политические события, происходящие в стране, не могли не оказать влияние на литературный процесс. В стране открываются школы нового типа, издаются газеты, журналы, наблюдается развитие в области литературы. Путём обзора темы у учащихся формируются представления о развитии Азербайджана в литературном-культурном направлении.

**Rəyçi: Əliyeva Xoşbəxt**
**Filologiya üzrə fəlsəfə doktoru**